## Beynəlxalq Valyuta Fondu: *Qeyri-neft sektorundakı artım perspektiv inkişaf üçün əsaslar yaradır*

Beynəlxalq Valyuta Fondunun (BVF) Yaxın Şərq və Orta Asiya ölkələri departamentinin direktoru Masud Əhmədin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində hökumət qurumları ilə keçirdiyi bir sıra səmərəli görüşlərin yekunu olaraq aparılan islahatlar və qarşıdakı ildə ölkəmizin sosial-iqtisadi vəziyyətinə dair proqnozlarını açıqlayıb. Azərbaycan iqtisadiyyatının perspektivləri, qeyri-neft sektorunun inkişafı ilə bağlı fikirlərini bildirən Masud Əhməd respublikamızdakı iqtisadi sabitliyi yüksək qiymətləndirib, həyata keçirilən tədbirlərin inkişafın təmin olunmasında mühüm rol oynadığını qeyd edib.

BVF-nin departament direktoru bildirib ki, Azərbaycanda həyata keçirilən düşünülmüş makroiqtisadi siyasət nəticəsində stabil inkişaf tempi qorunub saxlanılır. Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi və sosial islahatlar makroiqtisadi vəziyyətin sabit qalması ilə yanaşı, artım meyillərinin əldə olunmasına imkan verir. M. Əhmədin sözlərinə görə, iqtisadiyyatın neftdən asılılığının azaldılması, insan kapitalı, biznes mühiti, maliyyə sektoru, iqtisadi inkişafın davamlılığı və s. aktual məsələlər Azərbaycan hökuməti ilə müzakirə edilib. O bildirib ki, son illər ərzində Azərbaycan iqtisadiyyatı yaxşı göstəricilər nümayiş etdirib, xüsusilə də qlobal maliyyə böhranı dövründə inkişaf davam etdirilib: «Azərbaycan neft gəlirlərini səmərəli istifadə edib və böhranın təsirini azalda bilib. Eyni zamanda, hazırda makroiqtisadi sabitlik saxlanmaqdadır, inflyasiya aşağı səviyyədədir».

BVF hesab edir ki, respublikamız inkişaf dinamikasına görə Avropa miqyasında aparıcı dövlətlərdən biri sayılır. Azərbaycanda son illərdə əhəmiyyətli dərəcədə müsbət göstəricilər və dayanıqlılıq müşahidə olunur. İqtisadiyyata kredit yönəldilməsi və pul kütləsi artıb, insanların maddi rifahı yaxşılaşıb.

Azərbaycan hökumətinin iqtisadi hədəflərinin başlıca komponentlərindən biri neft sektorundan asılılığın azaldılması və yaxın 10 il ərzində qeyri-neft iqtisadiyyatının dominantlığını təmin etməkdir. Fond Azərbaycanda qeyri-neft gəlirlərinin, eləcə də büdcə gəlirlərində onların payının artmasını müsbət faktor kimi qiymətləndirib. BVF ortamüddətli perspektivdə qeyri-neft sektorunda artım tempinin fiskal siyasətə mühüm töhfə verəcəyinə və Azərbaycan iqtisadiyyatının neftdənkənar sahələr hesabına artacağına dair fikirlərini açıqlayıb. BVF-nin mövqeyinə görə, qeyri-neft sektorunun illik 5-6% artımı gələcək inkişaf üçün əhəmiyyətli əsaslar yaradır. Bu baxımdan, hazırda respublikamızda bu sahədə artımın 9,4%-ə bərabər olması ürəkaçandır.

BVF ekspertlərinin fikrincə, Azərbaycanın qarşısında sosial-iqtisadi inkişafla bağlı nikbin ssenarilər mövcuddur. Fond 2013-cü ildə Azərbaycanda ÜDM-in artım tempini 2,7%, 2014-cü ildə isə 3,1% proqnozlaşdırır. Digər proqnozlara əsasən, 2012-ci ildə ölkəmizdə inflyasiyanın səviyyəsi 6%, 2013-cü ildə 5% təşkil edəcək. Ölkəmizin iqtisadi strategiyasında əsas parametrlərdən biri büdcənin gəlirlər hissəsinin tamamilə qeyri-neft sektoru üzrə vergi daxilolmaları hesabına formalaşdırılmasının təmin edilməsidir. Məhz bu məqsədlə vergitutma bazasının genişləndirilməsi müasir dövrün başlıca tələblərindəndir. Bu istiqamətdə aparılan sistemli tədbirlər nəzərdə tutulan hədəflərə çatmaq üçün nikbinliyi artırır. Fondun ekspertləri də etiraf edirlər ki, Azərbaycanın vergi sistemində aparılan islahatlar vergi bazasının genişləndirilməsi, inzibatçılığın təkmilləşdirilməsi, xərclərin azaldılması baxımından əhəmiyyətlidir və perspektiv üçün geniş imkanlar açır. Təbii ki, vergitutma bazasının genişləndirilməsi iqtisadiyyatın qeyri-neft sektoru ilə bağlı sahələrindən daxil olan vergilərin həcminin artmasına əlverişli zəmin yaradır. Eyni zamanda, büdcə daxilolmalarında qeyri-neft vergi gəlirlərinin payının artması ümumilikdə büdcə zərfi və icmal büdcənin həcminin artması üçün əla fürsət yaradır. Bu amil Dövlət Neft Fondundan büdcənin investisiya sahələri ilə bağlı yönələn transfertlərin həcminin azalmasına da səbəb ola bilər.

Vergi sistemində aparılan islahatlar, inzibatçılığın təkmilləşdirilməsi, elektron xidmətlərin tətbiqinin diqqət mərkəzində olması, nağdsız ödənişlərin stimullaşdırılması, vergitutma bazasının genişləndirilməsi və qeyri-neft sektorundan vergi daxilolmalarının artırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirən BVF Azərbaycanda həyata keçirilən vergi siyasətinin əhəmiyyətini xüsusilə qeyd edib.

Elbrus CƏFƏRLİ